Türkiyə

# Həsən bəy Zərdabinin xatirəsinə həsr olunan simpozium









**İzmir şəhərində Azərbaycan mədəniyyət və sənət günləri keçirilib. Tədbirlər Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilib.**

Mərkəz Azərbaycanın milli mədəniyyəti, tarixi, ədəbiyyatı və dilinin Türkiyədə təbliği istiqamətində səfirliyin dəstəyi ilə qardaş ölkənin müxtəlif bölgələrində zəngin mədəni irsimizi tanıtmaq və iki ölkə arasında mədəni əlaqələri daha da gücləndirmək məqsədilə ardıcıl olaraq tədbirlər təşkil edir.

Belə tədbirlərdən biri də İzmir şəhərindəki Ege Universitetində "Türk dünyasının modernləşməsi II: Türk dünyasında mətbuat" mövzusunda beynəlxalq simpozium təşkil olunub. Simpozium Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabiyə həsr olunub.

Tədbir Ege Universiteti, bu ali təhsil müəssisəsinin ədəbiyyat fakültəsinin türk dili və ədəbiyyatı bölümü, Yunus Əmrə İnstitutu, Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi, Avrasiya Yazıçılar Birliyi və digər qurumların birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər Türk Cümhuriyyətlərindən çoxsaylı ədəbiyyatşünas-alim, milli mətbuat tarixinə dair tədqiqatçılar iştirak ediblər. 110 nəfərdən cox mətbuat tarixçisi müxtəlif panellərdə məruzələr oxuyub və müzakirələr aparıb.

Ege Universitetinin ədəbiyyat fakültəsinin dosenti Yılmaz Özkaya, universitet rektorunun müavini, professor Mehmet Ersan və digər natiqlər çıxışlarında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarının ölkələrimiz arasındakı xüsusi yer tutduğunu qeyd ediblər.

Bildirilib ki, iki qardaş ölkə arasında dünyaya nümunə olan həmrəylik hazırda dövlət başçılarımız tərəfindən uğurla davam etdirilir.

Mərasimdə çıxış edən **səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov** Türk dünyası arasındakı mədəni-ədəbi əlaqələrdən danışıb, simpoziumun alimlərimiz və ədəbiyyatşünaslarımız arasında ədəbi əlaqələrin genişlənməsinə böyük töhfə verəcəyinə inamını ifadə edib.



Simpoziumun Türk dünyasının maariflənməsində xüsusi xidmətləri ilə seçilən, milli mətbuatımızın banisi, maarifçi Həsən bəy Zərdabiyə həsr olunmasını yüksək qiymətləndirən Samir Abbasov Azərbaycan və Türk dünyasında ədəbiyyatımızın inkişafında xüsusi yeri olan tanınmış ziyalılarımız və maarifçilərimizin rolundan danışıb. O deyib: "Həsən bəy Zərdabi zəhmətkeş kütlələrin xoşbəxtlik və tərəqqisini elmdə görüb, elmin, təhsilin həyatla əlaqəsinə böyük əhəmiyyət verib. H.Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında sıx birləşdirərək öz vəzifəsini şərəf və ləyaqətlə həyata keçirmişdir. Hətta görkəmli hüquqşünas və ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov haqlı olaraq Həsən bəyi Azərbaycanın "mayak"ı, "məşəl"i adlandırmışdı.

Onun ədəbiyyat və sənət məsələlərində milli mədəniyyətimizin xəzinəsinə dəyərli hədiyyə olan ideya irsi bu gün belə öz təravətini itirməmişdir".

Samir Abbasov vurğulayıb ki, böyük iftixar hissi ilə qeyd edə bilərəm ki, bu böyük maarif carçısının arzu və ideyaları, Ulu Öndərimiz Heydər Əliyevin "Azərbaycanda demokratik mətbuatın yaradılmasının 125 illiyi" adlı 27 mart 2000-ci il tarixli fərmanı ilə təntənəli surətdə qeyd olundu.

Mərkəzin rəhbəri belə bir önəmli simpoziuma ev sahibliyi etdiyi üçün Ege Universitetinə öz təşəkkürünü bildirib.

Tədbirin sonunda Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan sənətçilərinin konserti keçirilib.

Milli mədəniyyət nümunələri, suvenirlərimiz, əl işlərimiz və milli geyimlərimizdən ibarət sərgi nümayiş etdirilib. Bununla yanaşı, "Bakı milli geyim evi"nin tarixi Azərbaycan geyimləri kolleksiyası da moda sərgisi olaraq təqdim olunub.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**